## “Filmlərin yayımı və nümayişi Qaydaları”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Kinematoqrafiya haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin ikinci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Filmlərin yayımı və nümayişi Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 iyul 2006-cı il
№ 165

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 6 iyul tarixli 165 nömrəli
qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

### Filmlərin yayımı və nümayişi

### Q A Y D A L A R I

1. Bu Qaydalar mülkiyyət formasından, buraxılış vaxtından və yerindən, texnikasından və istehsal üsullarından asılı olmayaraq milli, xarici və ya müştərək bədii, xronikal, sənədli, elmi-kütləvi, təhsil, cizgi və başqa janrlarda çəkilmiş filmlərin (bundan sonra - film) qanunsuz nümayişi, pornoqrafiya və zorakılıq təbliğ edən filmlərin yayımının qarşısının alınması~~, tamaşaçı auditoriyasının yaş kateqoriyalarının müəyyənləşdirilməsi~~ məqsədilə Azərbaycan Respublikasının ərazisində bütün filmlərin yayımı və nümayiş etdirilməsi ~~(kinozal, videozal, videoyayım məntəqələri vasitəsilə)~~ qaydalarını müəyyən edir.[1]

*1-1. Kino və videofilmlərin yaşa görə təsnifatlaşdırılması ilə bağlı məsələlər “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq tənzimlənir.*[2]

2. Filmlərin yayımı və onların nümayişi ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və bu Qaydalara uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və qurumlar məşğul ola bilərlər.

3. Efir, peyk və kabel televiziya yayımı ilə məşğul olan şəxslərin fəaliyyəti Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir.

4. Azərbaycan Respublikasının ərazisində yayımına və kütləvi nümayişinə icazə verilən bütün filmlər Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyində qeydə alınır və filmlərin dövlət reyestrinə daxil edilir.[3]

5. Beynəlxalq kinofestivallarda, xarici ölkələrin kino günlərində nümayiş etdirmək üçün ölkəyə gətirilən və festivaldan sonra geri qaytarılan filmlər qeydiyyata alınmır.

6. Filmi dövlət reyestrinə daxil etdirmək üçün mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxs aşağıdakı sənədləri təqdim edir:

6.1. ərizə;

6.2. filmin mülkiyyətçisi və ya filmdən istifadə hüququnun ona məxsus olduğunu təsdiq edən sənəd;

6.3. filmin texniki göstəriciləri (istehsalçı şirkət, ölkə, buraxılış ili, janr, rejissor, prodüser, nümayiş müddəti, təsvir daşıyıcısı, dil, *yaş kateqoriyası* və s.) haqqında arayış;

6.4. filmin texniki tələblərə cavab verən surəti;[4]

6.5. filmin milli, irqi və ya dini düşmənçiliyin yaradılmasına yönələn, həmçinin pornoqrafiya və zorakılığı təbliğ edən olmadığı barədə məlumat.[5]

*6-1. Bu Qaydaların 6-cı hissəsində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və yaxud mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxs tərəfindən təmin edilir.*[6]

~~7. Filmin tamaşaçı auditoriyasının yaş kateqoriyası Azərbaycan Respublikasının~~

~~Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilir.~~

~~8. Filmin tamaşaçı auditoriyasının yaş kateqoriyasının müəyyən edilməsində yarana biləcək mübahisəli məsələlərə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təhsil, səhiyyə orqanları nümayəndələrindən ibarət yaratdığı mübahisə komissiyası tərəfindən baxılır.~~[7]

9. Bu Qaydaların 6-cı bəndinə riayət edilmədikdə *(bu Qaydaların 6-1-ci hissəsinin tələbləri nəzərə alınmaqla)*, habelə qeydə alınmaq üçün təqdim olunan milli, irqi və ya dini düşmənçiliyin yaradılmasına yönələn, həmçinin pornoqrafiya və zorakılığı təbliğ edən filmlər dövlət reyestrinə daxil edilmir və bu barədə ərizəçiyə 10 gün müddətində əsaslandırılmış yazılı məlumat verilir.[8]

10. Ərizəçi qəbul edilmiş qərarla razılaşmadıqda, məhkəməyə müraciət edə bilər.

11. Filmlərin Dövlət reyestrinin aparılması qaydaları Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları”na uyğun həyata keçirilir.[9]

12. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, göstərilən filmlərin mülkiyyətçisi və ya onlardan istifadə hüququnun sahibləri olan fiziki və hüquqi şəxslər bu Qaydaların 4-cü bəndinə uyğun olaraq qeydə alınan və dövlət reyestrinə daxil edilən həmin filmlərin müəyyən olunmuş qaydada kommersiya və qeyri-kommersiya qurumlarına satışını, həmçinin yayımını və nümayişini həyata keçirmək məqsədilə onları çoxaltmaq hüququna malikdirlər və bu halda yeni sahiblər filmləri təkrarən qeydə almırlar.

13. Mülkiyyət formasından, buraxılış vaxtından və yerindən, texnikasından və istehsal üsullarından asılı olmayaraq hər bir film dövlət reyestrinə daxil edilir və bu Qaydaların əlavəsinə uyğun vahid formalı yayım vəsiqəsi verilir.

14. Hər bir yayım vəsiqəsinə dövlət qeydiyyat nömrəsi verilir.

15. Yayım vəsiqəsinə yaş kateqoriyalarının məhdudlaşdırılmasına dair məlumat daxil edilir.

16. Yayım vəsiqəsi ərizənin qəbul edildiyi gündən başlayaraq, 10 gün müddətindən gec olmayaraq ərizəçiyə verilir. Yayım vəsiqəsinin surəti Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyində saxlanılır.

17. Filmlərin yayımı və kütləvi nümayişi ilə məşğul olan fiziki və hüquqi şəxslər:

17.1. bu Qaydalara riayət olunmasını təmin edir və dövlət reyestrində qeydiyyata alınmayan filmlərin yayımına və kütləvi nümayiş etdirilməsinə yol vermirlər;

*17.2. filmin ilkin reklamı zamanı onun aid olduğu yaş kateqoriyası haqqında əhalini məlumatlandırır, filmin nümayişindən əvvəl xüsusi kadrda (səhifədə) filmin yaş kateqoriyasına uyğun işarənin və yaş məhdudiyyəti barədə xəbərdarlığa dair mətnin yerləşdirilməsini təmin edirlər.*[10]

17.3. kinozallarda, videozallarda film tamaşaçısına kassa vasitəsilə vahid formalı kino bileti satılmasını təmin edirlər;

*17.4. filmin yaş kateqoriyasına uyğun işarənin afişaların və biletlərin beş faizindən az olmayan sahəsini tutmasını təmin etməlidirlər.*[11]

*18. Kino xidməti göstərilərkən reklam kinoteatrın foyesində yayımlana bilər. Kinofilmlərin (əvvəli istisna olmaqla) nümayişi zamanı reklam yayımlanması qadağandır.*[12]

Filmlərin yayımı və nümayişi Qaydalarına
ƏLAVƏ

**Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyi**

**YAYIM VƏSİQƏSİ**

Film Azərbaycan Respublikasının Mədəniyyət ~~və Turizm~~ Nazirliyində qeydə alınmışdır.[13]
D ö v l ə t qeydiyyat nömrəsi
______________________________________________

Adı ________________________________________________________
filmin çəkildiyi dildə adı və Azərbaycan dilində adı

İstehsalı ______________________________
_________________
istehsalçı ölkənin və şirkətin adı
buraxılış ili

Rejissor __________________________ Prodüser
_____________________

Təsnifat __________________________ Nümayiş müddəti
______________
dəqiqə ilə

J a n r ı ____________________________ Dili
_________________________

T ə s v i r daşıyıcı _____________________ Rəngi
______________________
kino, video, lazer diski
rəngli, ağ-qara

Azərbaycan Respublikasının ərazisində filmin mülkiyyətçisi və ya filmdən i s t i f a d ə hüququnu həyata keçirən şəxsin adı
___________________________________
_____________________________________________________________

Yayım və nümayiş yaş kateqoriyaları üzrə müəyyən edilmiş aşağıdakı tamaşaçı auditoriyası üçün nəzərdə tutulur:
_____________________________________________________________
*"universal", "6-", "6+", "12+", "16+", "18+"* tamaşaçılar üçün[14]

"________________________________
_________________________
səlahiyyətli şəxsin vəzifəsi, adı, soyadı
səlahiyyətli şəxsin imzası, möhür

Bakı şəhəri, "____ " ___________200__ il

—

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 17 mart 2008-ci il tarixli 72 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 239**)
2. 1 sentyabr 2016-cı il tarixli **334** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1562**)
3. 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370)**
4. 26 oktyabr 2020-ci il tarixli **423** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №10, maddə 1311**)
5. 3 oktyabr 2023-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 oktyabr 2023-cü il)**


**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 17 mart 2008-ci il tarixli 72 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 239**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 1-ci bənddən "**(kinozal, videozal, videoyayım məntəqələri vasitəsilə)**" sözləri çıxarılmışdır.

24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"nın 1-ci hissədən "**, tamaşaçı auditoriyasının yaş kateqoriyalarının müəyyənləşdirilməsi**" sözləri çıxarılmışdır.

[2] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"na 1-1-ci hissə əlavə edilmişdir.

[3] 26 oktyabr 2020-ci il tarixli **423** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №10, maddə 1311**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 4-cü hissədən və 16-cı hissənin ikinci cümləsindən "**və Turizm**" sözləri çıxarılmışdır.

[4] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"nın 6.3-cü bəndə "**dil**" sözündən sonra "**, yaş kateqoriyası**" sözləri əlavə edilmişdir.

[5] 17 mart 2008-ci il tarixli 72 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 239**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 6.4-cü bənddə nöqtə işarəsi vergül işarəsi ilə əvəz edilmişdir və 6.5-ci yarımbənd əlavə edilmişdir.

[6] 3 oktyabr 2023-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 oktyabr 2023-cü il**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"na yeni məzmunda 6-1-ci hissə əlavə edilmişdir.

[7] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"nın 7-ci və 8-ci hissələr ləğv edilmişdir.

[8] 3 oktyabr 2023-cü il tarixli **352** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 oktyabr 2023-cü il**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"nda 9-cu hissəyə "**riayət edilmədikdə**" sözlərindən sonra "**(bu Qaydaların 6-1-ci hissəsinin tələbləri nəzərə alınmaqla)**" sözləri əlavə edilmişdir.

[9] 17 mart 2008-ci il tarixli 72 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 3, maddə 239**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"nın 11-ci bənd aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~11. Dövlət reyestrinin aparılması və qeydə alınmış filmlərin surətlərinin saxlanılması qaydaları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən müəyyən edilir.~~

—

[10] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"nın 17.2-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~17.2. filmin ilkin reklamı zamanı onun aid olunduğu yaş kateqoriyası haqqında əhalini məlumatlandırır və film nümayiş etdirildikdə, yaş kateqoriyaları üzrə məhdudiyyətləri təmin edirlər;~~

[11] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370**) ilə Filmlərin yayımı və nümayişi Qaydaları"nın 17.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 17.4-cü bənd əlavə edilmişdir.

[12] 1 sentyabr 2016-cı il tarixli **334** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 6 sentyabr 2016-cı il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1562**) ilə "Filmlərin yayımı və nümayişi Qaydaları"na yeni məzmunda 18-ci hissə əlavə edilmişdir.

—

[13] 26 oktyabr 2020-ci il tarixli **423** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, №10, maddə 1311**) ilə "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi YAYIM VƏSİQƏSİ"nin adından və mətnindən "**və Turizm**" sözləri çıxarılmışdır.

[14] 24 mart 2020-ci il tarixli **109** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 aprel 2020-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 3, maddə 370)** ilə Filmlərin yayımı və nümayişi Qaydaları"a əlavənin 10-cu sətrinin ikinci abzasında "**bütün tamaşaçı kateqoriyaları üçün, 14 yaşdan yuxarı olan tamaşaçılar üçün, 18 yaşdan yuxarı olan**" sözləri **"universal", "6-", "6+", "12+", "16+", "18+"** sözləri ilə əvəz edilmişdir.